# İmtahanlar müvəffəqiyyətlə davam edir

Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetində qış imtahanları davam edir. Az vaxtda nəzərdə tutulan bütün imtahanlar imtahan sessiyasının təlimatlarına və əsasnamələrinə uyğun keçirilmiş, tələbələrin biliyinin düzgün qiymətləndirilməsi təmin edilmişdir. Universitetdə tələbələrin imtahan suallarını sərbəst cavablandırmaları üçün hər cür şərait yaradılmışdır. İmtahanların gedişində nizam-intizam qaydalarına ciddi əməl olunması, baş verə biləcək mənfi halların qarşısının alınması üçün lazımi tədbirlər görülmüşdür. Bütün imtahanlarda şəffaflığın qorunması üçün valideynlərin müşahidəçi qismində iştirakına şərait yaradılmışdır. İmtahanların nəticələri rektorun əmrində göstərilən vaxtda elan olunmuşdur. Tələbələrin əksəriyyəti imtahanlardan müvəffəq qiymətlər almışlar.

İmtahanlar davam edir.